*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s.179-183*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p.179-183*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с.179-183*

**UOT: 94(575.11):39**
https://doi.org/10.30546/670832.2025.01.938

# Borçalı toponimi və Borçalı əhalisinin etnik tərkibi

**Müəllif(lər):**

**Gülər Əjdərzadə**
Mingəçevir Dövlət Universiteti
Müəllim
**E-poçt:**gular.ajdarzada@mdu.edu.az
https://orcid.org/0000-0002-6992-6325

**Açar sözlər:** Borçalı bölgəsi, Borçalı mahalı, Borçalı sultanlığı, barsillər, buntürklər, qarapapaqlar

**Annotasiya.** Bu gün müasir Azərbaycan sərhədlərindən kənarda qalan tarixi Azərbaycan torpaqlarından olan Borçalı mahalının tarixi qonşu ölkələrin tarixşünaslığında ən çox təhriflərə məruz qalır. Eyni zamanda, Borçalı tarixi Azərbaycan tarixşünaslığında çox az müraciət edilən mövzulardan biridir. Bu mənada Borçalı mahalının tarixini araşdırmaq və bu bölgənin tarixi ilə bağlı gerçəklikləri üzə çıxarmaq böyük aktual kəsb edir. Məqalənin məqsədi müasir Azərbaycanın sərhədlərindən kənarda qalan tarixi Azərbaycan torpaqlarından olan Borçalı mahalının tarixi keçmişinə nəzər salmaq, Borçalı toponiminin mənşəyini və Borçalı əhalisinin etnik tərkibini aydınlaşdırmaqdır. Material və Metodlar: məqalə yazılarkən  müqaisəli təhlil metodundan istifadə edilmişdir, bu sahədə mövcud ədəbiyyatlara, məqalələrə istinad edilmişdir.. Praktik və nəzəri əhəmiyyəti: material ali təhsil müəssisələrində mühzirə və seminarlarda istifadə oluna bilər, eləcə də tarixlə maraqlananlar üçün faydalı tədqiqatdır. Tədqiqatın sonunda belə bir nəticəyə gəlinmişdir ki, Borçalı bölgəsi hələ antik dövrlərdən etibarən müxtəlif türk tayfaları ilə məskunlaşmış, Cənubi Qafqazda türklərin yaşadığı ən qədim yurd yerlərindən biri olmuşdur. Borçalı bölgəsinin adı da birbaşa türk tayfasının adını əks etdirən etnonimlə və ya qədim türklərə məxsus etno-simvolla – “bozqurd” (börü) ilə bağlıdır. Borçalı bölgəsi qədim və orta əsrlərdən başlayaraq müxtəlif türk tayfalarının – buntürklər, barsillər, qıpçaqlar, oğuzlar, qarapapaqlar və başqalarının sıx şəkildə məskunlaşdığı ərazi kimi diqqət çəkmiş, müxtəlif tarixi mərhələlərdə mövcud olmuş Azərbaycan dövlətlərinin tərkibinə daxil olmuşdur. Borçalı 1801-ci ildə Şərqi Gürcüstanla birlikdə Rusiyaya ilhaq edilmişdir.

## The toponym Borchaly and the ethnic composition of the population in Borchaly

**Author(s):**

**Gular Ajderzade**
Mingachevir State University
Teacher
**E-mail:**gular.ajdarzada@mdu.edu.az
https://orcid.org/0000-0002-6992-6325

**Key words:** Borchali region, Borchali district, Borchali sultanate, Barsils, Bunturks, Karapapaks

**Abstract.** Today, the history of Borchali province - one of the historical Azerbaijani territories currently outside the modern borders of Azerbaijan - is among the most distorted in the historiography of neighboring countries. At the same time, the history of Borchali remains one of the least studied topics in Azerbaijani historiography. In this regard, researching the history of Borchali and uncovering the historical truths related to this region holds significant contemporary relevance. The aim of the article is to review at the historical past of Borchaly district, one of the historical Azerbaijani lands outside the borders of modern Azerbaijan, to clarify the origin of the toponym Borchaly and the ethnic composition of the Borchaly population. Methods: the comparative analysis method was used when writing the article. Practical and theoretical significance: the material can be used in lectures and seminars at higher education institutions, as well as a useful study for those interested in history. The study concludes that the Borchali region has been inhabited by various Turkic tribes since ancient times and is considered one of the earliest Turkic settlements in the South Caucasus. The name “Borchali” is directly linked to a Turkic ethnonym or an ancient Turkic ethno-symbol – the “bozkurt”. From antiquity through the Middle Ages, the region became home to numerous Turkic tribes, such as the Bunturks, Barsils, Kipchaks, Oghuz, and Karapapaks. Throughout different historical periods, the Borchali region was part of various Azerbaijani states. In 1801, Borchali, along with Eastern Georgia, was annexed by the Russian Empire.

## Топоним Борчалы и этнический состав населения Борчалы

**Автор(ы):**

**Гюлер Аждерзаде**
Мингячевирский государственный университет
Преподаватель
**Э-почта:** gular.ajdarzada@mdu.edu.az
https://orcid.org/0000-0002-6992-6325

**Ключевые слова:** регион Борчалы, уезд Борчалы, султанат Борчалы, барсилы, бунтюрки, карапапахи

**Аннотация.** В настоящее время история Борчалинского уезда – одного из исторических азербайджанских земель, находящихся за пределами современных границ Азербайджана – подвергается наибольшим искажениям в историографии соседних стран. В то же время история Борчалы остаётся одной из наименее изученных тем в азербайджанской историографии. В этом смысле исследование истории Борчалы и выявление исторической правды об этом регионе представляет собой большую актуальность. Целью статьи является рассмотрение исторического прошлого Борчалинского района, одной из исторических азербайджанских земель за пределами современного Азербайджана, выяснение происхождения топонима Борчалы и этнического состава населения Борчалы. Методы: при написании статьи использовался метод сравнительного анализа. Практическая и теоретическая значимость: материал может быть использован на лекциях и семинарах в высших учебных заведениях, а также в качестве полезного учебного пособия для интересующихся историей. В исследовании делается вывод о том, что Борчалинский район с древнейших времен был заселен различными тюркскими племенами и считается одним из древнейших тюркских поселений на Южном Кавказе. Название «Борчалы» напрямую связано с тюркским этнонимом или древнетюркским этносимволом – «бозкурт». С древности и до Средневековья регион был домом для многочисленных тюркских племен, таких как бунтюрки, барсилы, кипчаки, огузы и карапаки. В разные исторические периоды Борчалинский район входил в состав различных азербайджанских государств. В 1801 году Борчалы вместе с Восточной Грузией были присоединены к Российской империи.

**Giriş.** Müasir Azərbaycanın sərhədlərindən kənarda qalan tarixi Azərbaycan torpaqlarından biri də Borçalı ərazisidir. Tarix boyu əsas etibarilə Azərbaycan dövlətlərinin tərkibində olan Borçalı mahalı qədim dövrlərdən etibarən buntürklər, barsillər, bulqarlar, qıpçaqlar, oğuzlar, qarapapaqlar kimi türk əhalisinin məskunlaşdığı bölgələrdən biri olmuşdur. Borçalı toponimi də türk tayfaları ilə bağlıdır. Sonrakı dövrlərdə daha çox qarapapaqlar adı ilə tanınan Borçalı türkləri regionda cərəyan edən ictimai-siyasi və hərbi proseslərdə mühüm rol oynamışlar. Azərbaycanın şimal-qərb sərhədlərində yerləşən Borçalı mahalı yerləşməsi etibarilə tarix boyu srtateji bir ərazi kimi mühüm əhəmiyyət kəsb etmiş və qonşu dövlətlərin maraq dairələrində olmuşdur. Azərbaycan taxtında bir-birini əvəz edən ayrı-ayrı sülalələrin hökmranlığı dövründə Borçalı mahalı xarici təhlükələrə və hücuma məruz qalsa da, Azərbaycan hökmdarları bu ərazini qorumağa çalışmış və mahal Azərbaycan dövlətinin sərhədləri daxilində qorunub saxlanılmışdır. Bu mənada Borçalı mahalı Azərbaycanın digər bölgələri ilə eyni ictimai, siyasi, iqtisadi və mədəni həyat yaşamışdır.

**Tədqiqatın aparılmasında qoyulan əsas məqsəd** Borçalı mahalının tarixi keçmişinə ümumi nəzər salmaq, Borçalı toponiminin mənşəyi, əhalisinin etnik tərkibi və mənşəyi öyrənməkdən ibarətdir. Tədqiqatın aparılmasında problem-xronoloji təsvir, tarixi-genetik və müqayisəli təhlil metodlarından istifadə edilib. Material və Metodlar: məqalə yazılarkən müqayisəli təhlil metodundan istifadə edilmişdir, bu sahədə mövcud ədəbiyyatlara, məqalələrə istinad edilmişdir.

***Əsas hissə.*** Borçalı toponimi. Müasir Gürcüstan Respublikasının cənub-şərqində, Ermənistan Respublikasının şimal-qərbində yerləşən Borçalı bölgəsinin ərazisi başlıca olaraq dağlıq, üçdə bir hissəsi isə düzənlikdən ibarətdir. Qədim dövrlərdən etibarən türklərin sıx şəkildə yaşadığı tarixi bölgələrdən biri olan Borçalı mahalı Gürcüstan Respublikasının Dmanisi (Başkeçid), Bolnisi (Bolus), Marneuli (Sarvan, Candar, Qızılhacılı), Qardabani (Qaratəpə), Zalqanın (Barmaqsız) bir hissəsi, Rustavi (Bostanşəhər), Ermənistan Respublikasının şərqində yerləşən Noyamberyan (Baranlı), Spitak (Hamamlı), Amasiya (Ağbaba), Stepanavan (Cəlaloğlu), Kalinino (Taşır) ərazilərini əhatə edir [3, s. 7].

Tarixi araşdırmalar Qafqazın cənub-qərbində yaşayan azərbaycanlılarının etnik kökləri hələ e.ə. I minilliyin son əsrlərində tarixi Borçalı ərazisində yaşayan türk tayfalarına – buntürklərə, barsillərə, bulqarlara, qıpçaqlara, oğuzlara, qarapapaqlara gedib çıxdığını göstərir. Bu baxımdan hələ orta əsr müəlliflərinin əsərlərində rast gəlinən "Borçalı" etnoniminin mənasının araşdırılması elmi baxımdan mühüm əhəmiyyət daşımaqdadır.

Görkəmli ərəb tarixçisi Yaqut əl-Həməvi "Borçalının Arranda yer adı olmasını" qeyd etmiş, Qardizi isə bu bölgəni "Börüçala" (qurd düzü) adlandırmışdır. Görkəmli tarixçi Fəzlullah Rəşidəddin isə "Borçalı" terminini toponim və etnonim kimi işlətmişdir. Alban tarixçisi Musa Kalankatlı isə Borçalı toponiminin mənşəyini e.ə. II əsrdə Cənubi Qafqazda məskunlaşan türk tayfaları barsillərlə əlaqələndirmişdir [5, s. 13].

Borçalı adının kökü olan "barsil" etnonimi "bozqurd" mənasını daşıyan "börü" mənasında işlədilən "bars" kəlməsi ilə yaxından bağlıdır. Beləliklə, Borçalı kəlməsinin kökündə qədim türklər üçün çeviklik, cəsarət və səy göstərmək rəmzi olmuş və Tanrıdan güc almış börü, börcə və ya borcu, yəni "bozqurd" yer almaqdadır [2, s. 11].

Bir çox erkən orta əsrlər tarixçilərinin bəhs etdikləri barsillərin Sak dövlətini, Xəzər xanlığını və Sarmatiyanı yaratmış boy və oymaqlardan biri olması mənbələrdə qeyd edilmişdir. Mifoloji rəvayətlərdə göstərildiyinə görə, Bulqar, Xəzər və Barsela (Barçola) adlı üç qardaş, eyni zamanda başqa yeddi soy və bir əcdaddan törəmişlər. Bu baxımdan salnamələrdə xəzərlər və barsillərin əkiz boylar olaraq qeyd edilməsi təsadüfi sayıla bilməz. Ərəb tarixçilərindən Yaqut əl-Həməvi Barçola şəklində qeyd etdiyi bu tayfanı bulqarların bir qolu hesab etmişdir. Barsillər Hun, Bulqar və Xəzər xanlıqlarında mühüm mövqeyə sahib idilər. Bunu Xəzər xaqanlarının barsil tayfasından olan qızlarla izdivaca girmələri faktı da təsdiq etməkdədir.

Barsillərin Qafqazın hər iki hissəsində geniş ərazilərdə məskunlaşmalarını erkən orta əsr mənbələri də birmənalı şəkildə təsdiq edir. Ərəb

tarixçisi Bəlazuri Dərbənddən şimalda "əl-Berşeliya" adlı şəhərin adını çəkmişdir. Türk tarixçisi F.Kırzıoğlu Moisey Xorenliyə əsaslanaraq erməni hökmdarı Tridatın Sasani hökmdarı II Şapurla 310-cu ildə Debed və Kür çayının qovuşduğu yerdə - Borçalıda qarşılaşdığını göstərir [4, s. 44].

**Borçalı əhalisinin etnik tərkibi.** Borçalının tarixinə nəzər salarkən diqqət yetirilməli olan əsas məqamlardan birini də qədim dövrlərdən bu ərazini məskunlaşdıran xalqların soykökünün araşdırılması məsələsi təşkil edir. Bu problemi aktuallaşdıran məqamlardan biri gürcü və keçmiş sovet tarixşünaslığında bölgənin tarixinin ciddi cəhdlə və elmi faktlara rəğmən saxtalaşdırılması, bölgəyə türk əhalisinin sonradan gəlmə olmasını özündə ehtiva edən qeyri-elmi konsepsiyanın ortaya atılmasıdır. Türklərin bölgədən uzaqlaşdırılmasını ideoloji cəhətdən əsaslandırmağı qarşısına məqsəd qoymuş gürcü tarixçilərinin irəli sürdükləri iddiaya görə, türklərin müasir Gürcüstan ərazisində qismən yerləşməsi XI əsrə – səlcuq-oğuz axınları dövrünə təsadüf edir. Gürcü tarixçiləri qeyd edirlər ki, XIII əsrdə Upadar adı ilə tanınan Alazan, Por və Kambizena vadilərində monqol-tatar tayfaları məskunlaşmış və burada Muğanlı, Muqalo, Muğal etnonimləri meydana gəlmişdir. Gürcü alimi P.İoselianinin fikrincə, "öldürücü iqlim və gürcü qılıncı onları öz hakimiyyətinə tabe edərək qula, və ya kəndliyə çevirmiş, yaxud da dağlara qovmuşdur" [8, s. 12].

Gürcü tarixşünaslığında azərbaycanlıların müasir Gürcüstan ərazisində kütləvi şəkildə məskunlaşması Şah I Abbasın (1587-1629) hakimiyyət dövrü ilə əlaqələndirilir. Hətta Gürcüstanın orta məktəblərində tədris edilən fənlərdə belə yer almış yanlış iddiaya görə, Gürcüstan azərbaycanlılarının əksəriyyətinin əcdadları Şah I Abbas tərəfindən Kartliyə köçürülmüş Borçalı tayfası olmuşdur. Azərbaycanlı əhalinin digər qisminin əcdadlarının isə muğanlıların nəslindən olması iddiası irəli sürülür. Tarixə faktlara nəzər salsaq məlum olur ki, 1616-cı ildə Kartli və Kaxetiya üzərində tam nəzarəti bərpa edən Şah I Abbas bu yerlərdə qədim dövrlərdən etibarən yaşayan azərbaycanlıların vəziyyətini möhkəmləndirmişdir [7, s. 1]. Lakin bununla yanaşı, o da məlumdur ki, qarapapaqların osmanlılara hüsn-rəğbətini bilən Şah I Abbas Borçalı-Qazax mahalının bir çox kəndlərinin əhalisini Gəncə-Qarabağ və Şirvan bəylərbəyliklərinə köçürmüşdür. Bu fakt özü-özlüyündə Borçalının Şah I Abbas tərəfindən türklərlə kütləvi şəkildə məskunlaşdırması fikrini əsassız iddiaya çevirir.

Yuxarıda "Borçalı" toponimini izah edərkən onun qədim türk tayfaları olan barsillərlə bağlılığını qeyd etmişik. Tarixçi K.Məmmədovun qeyd etdiyinə görə, pəhləvi mənbələrində bölgə Qordman (Qurd adamların yurdu) şəklində xatırlanmışdır [1].

Borçalının tarixinə dair gürcü tarixşünaslığında mövcud olan yanlış yanaşmaları aydınlaşdırmaq üçün gürcü mənbələrinin bölgə haqqında verdiyi məlumatlara nəzər salmaq olduqca vacibdir. Gürcü mənbələrinin özündə isə Borçalının adı "Qurdis xevi" (Qurd çalası) şəklində çəkilməsi [3, s. 7] Borçalı bölgəsinin tarixi ilə bağlı tarixşünaslıqda rast gəlinən əsassız iddialara ən tutarlı cavab hesab edilə bilər. VIII əsrə aid olan gürcü mənbəsi "Moksevay Kartlitsa"da isə Borçalının hələ qədimdən türklərlə məskunlaşmasına dair qiymətli məlumat vardır. Salnamədə bununla bağlı göstərilir: "Makedoniyalı İsgəndər Lot övladlarını yarımqaranlıq ölkəyə sıxışdırarkən burada ilk dəfə Kür çayının axarı boyu dörd şəhərdə – Sarkine, Kaspi, Urbnis, Odzraxda yaşayan çılğın buntürklərlə qarşılaşdı" [10, s. 1]. Göründüyü kimi, mənbənin məlumatı əsasən hələ e.ə. IV əsrdə bu torpaqlarda türk tayfalarının yaşamasını təsdiq etməkdədir. Gürcü tarixçisi E.Takayşvili buntürkləri "türklər", başqa sözlə "turanlılar" adlandırır, digər gürcü mənbəsi "Kartlis sxovreba"-ya istinad edərək göstərir ki, iranlılar tərəfindən sıxışdırılan 28 min ailədən ibarət olan buntürklər Xəzər dənizini ötüb keçərək Kürün yuxarı axarı boyunca hərəkət etmiş və Mesxetiyadan qərbdə məskunlaşmışlar [10, s. 1]. Borçalı, Ağcaqala və digər türk toponimlərinə Vaxuşti Baqrationinin "Gürcü çarlığının tarixi" əsərində də rast gəlinir [6, s. 86, s. 109]. Gürcüstanın qədim əhalisinin gürcülər olmasını qeyd edən L.Mroveli göstərir ki, Kartlidə gürcülərlə birlikdə buntürklər də yaşamışlar [8, s. 28].

Yazılı mənbələrin verdiyi bu məlumatlar, o cümlədən toponimik materiallar türklərin müasir Gürcüstan ərazisinə XI və sonrakı əsrlərdə məskunlaşmaları ilə bağlı iddiaları birmənalı şəkildə rədd edir. Xüsusilə bölgənin hələ erkən orta əsr pəhləvi mənbələrində "Qordman", gürcü

mənbələrində "Qurdis xevi" (Qurd çalası), ərəb mənbələrində Berşaliya və ya Börüçölü, Avropa səyyahları tərəfindən isə "Turqie Georgia" (Türk Gürcüstanı) adlandırılması Borçalının hələ qədim zamanlardan türklərin yurd yerlərindən birini olmasını göstərən təkzibolunmaz faktlardan biridir.

Borçalı etnonimi haqqında mənbələrdə əksini tapmış məlumatlar bu bölgənin hələ qədim dövrlərdən etibarən türk əhalisi ilə məskunlaşdırılmasını təsdiq edir. Bölgənin adının birbaşa türk tayfasının adını əks etdirən etnonimlə və ya qədim türklərə məxsus etno-simvolla – "bozqurdla" (börü) əks olunması burada yaşayan xalqın etnik mənsubiyyətinin birbaşa göstəricisidir. Bundan əlavə, pəhləvi, ərəb, fars və gürcü dillərində olan müxtəlif mənbələrdə bu adın eyni və ya oxşar şəkildə çəkilməsi, yaxud da "qurdların (börülərin) yaşadığı yer" anlamında kalka edilməsi mülahizəmizi birbaşa təsdiq edir. Borçalının əhatəsində olan müxtəlif xalqların ərazini eyni və yaxud oxşar adlarla yad etməsi heç şübhəsiz, burada yaşayan xalqın bölgəni öz etnik kimliyini bildirən toponimlə adlandırması ilə əlaqədar olmuşdur. Buradan belə bir qənaətə gəlmək olar ki, tarixi hələ qədim dövrlərə gedib çıxan "Borçalı" toponimi coğrafi adlandırma ilə yanaşı, milli çalar da daşımışdır ki, bu da bölgə əhalisinin etnik mənsubiyyətini göstərir. Bu fakt, bölgəyə adlarını vermiş olan qədim türk tayfası barsillərin adlarının mənasının izah edilməsində də mühüm əhəmiyyət daşımaqdadır. Yuxarıda qeyd etdiyimiz kimi, barsil sözünün kökündə dayanan "bars" kəlməsinin "bozqurd" (börü) anlayışı ilə yaxınlığını nəzərə alsaq, məlum olur ki, müxtəlif dillərdə olan mənbələrdə rast gəlinən "börü çalası", "qurd adamların yeri", "qurd çalası" terminləri bölgədə məskən salmış qədim türk tayfasının adının kalka edilmiş variantıdır. Beləliklə, "barsil" adının "bozqurd" və ya "börü" anlamında işlənildiyi də məlum olur.

**Nəticə.** Borçalı bölgəsinin etno-siyasi tarixinə qısa baxış onu göstərir ki, bu ərazi hələ antik dövrlərdən etibarən müxtəlif türk tayfaları ilə məskunlaşdırılmış, Cənubi Qafqazda türklərin yaşadığı ən qədim yurd yerlərindən biri olmuşdur.

Borçalı etnonimi haqqında mənbələrdə əksini tapmış məlumatlar bu bölgədə hələ qədim dövrlərdən etibarən türk əhalisinin məskunlaşmasını təsdiq edir. Borçalı bölgəsinin adı da birbaşa türk tayfasının adını əks etdirən etnonimlə və ya qədim türklərə məxsus etno-simvolla – "bozqurd" (börü) ilə bağlıdır. Erkən orta əsrlərdən başlayaraq bütün mənbələrdə Borçalı toponimi bəzən kalka edilsə də, "qurdların (börülərin) yaşadığı yer" anlamında işlədilir. Tarixi qədim dövrlərə gedib çıxan "Borçalı" toponimi coğrafi adlandırma ilə yanaşı, milli çalar da daşımışdır ki, bu da bölgə əhalisinin etnik mənsubiyyətini göstərir. Müxtəlif dillərdə olan mənbələrdə rast gəlinən "börü çalası", "qurd adamların yeri", "qurd çalası" terminləri bölgədə məskən salmış qədim türk tayfasının adının kalka edilmiş variantıdır.

**Yekun nəticə.** Tarixi faktlar sübut edir ki, bölgə müxtəlif tarixi mərhələlərdə mövcud olmuş Azərbaycan dövlətlərinin tərkibinə daxil olmuş və bütün dövrlərdə öz hərbi-strateji əhəmiyyətinə, habelə ticarət yollarının buradan keçməsinə görə mühüm əhəmiyyət daşımışdır. Bu səbəbdən Borçalı bölgəsi demək olar ki, daim dövlətlərarası rəqabət meydanına çevrilmiş, dəfələrlə əldən-ələ keçmişdir. Mürəkkəb hərbi-siyasi hadisələrin baş verdiyi əsas ərazilərdən birinə çevrilməsi Borçalı əhalisinin tarixi taleyinə, bölgənin demoqrafik vəziyyətinə də özünəməxsus təsir göstərmişdir.

**Ədəbiyyat**


1. Məmmədov, K. Unudulan və unutdurulan tarix. "Borçalının səsi", № 01, 02-09 iyul 2005-ci il.
2. Məmmədli, Ş. Alın yazımız. Gürcüstan Azər türklərinin tarixi. – Tiflis: Samşoblo, – 1997, – 104 s.
3. İmrani, R. Kafkasda Medeniyyet və Kültürün Oluşması və Gelişmesinde Türk Halklarının Önemi. // I Uluslararası Kafkasya Halk Kültürü Konqresi. Kars: Kafkas Universitesi, Geleneksel Aşık Sanatı və Edebiyyatı Uygulama ve Araştırma Merkezi. –Kars, – 2017, – s.1-29.
4. Kırzıoğlu, F. Yukarı Kür Ve Çoruk Boyları'nda Kıpçaklar, Ankara, Türk Tarihi Kurumu Basımevi, – 1992, – 278 s.
5. Алиева, И. Политическое и социально-экономическое положение азербайджанцев Тифлисской губернии (1846-1917). – Баку: "Bakı", – 2009. – 224 с.

6. Багратиони, В. История царства Грузинского. – Тбилиси: Мецниереба, – 1976, – 197 с.
7. Бутков, П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. (Перечень хронологических указаний). – СПб.: Издательство Академии Наук, – 1869. – 548 с.
8. Иоселиани, П.И. Путевые записки по Дагестану в 1861 году. – Тифлис: Тип. Гл. упр. наместника кавказского, – 1862. – 103 с.
9. Мровели, Л. Жизнь картлийских царей. – Москва: Наука, – 1979. – 103 с.
10. Такайшвили, Е.С. Источники грузинских летописей. Три хроники (перевод с грузинского) СМОМПК. вып. XXVIII. – Тифлис, – 1900. – с.1-216.

*Məqalə tarix üzrə elmlər doktoru, professor İsmayıl Hacıyev tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 10.01.2025, son daxilolma – 05.02.2025, qəbulolunma – 05.03.2025